**"TƏSDİQ EDİRƏM"**

Azərbaycan Respublikasının
Daxili İşlər naziri

**Ramil Usubov**

"18" 01 2012-ci il.

Daxili İşlər Nazirliyi tərəfindən arxiv arayışlarının verilməsi
**üzrə inzibati reqlament**

**1. Ümumi müddəalar**

**1.1. Elektron xidmətin adı:**
Arxiv arayışlarının verilməsi.

**1.2. Elektron xidmətin məzmunu:**
Şəxsin daxili işlər orqanlarinda xidməti, xidməti dövründə Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştiraki və həmçinin repressiyaya və ya sürgün olunması barədə arayışların verilməsi qaydaları haqda məlumatların əldə edilməsini əhatə edir.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**
"DİN sistemində arxiv işinin təşkili qaydalarının təsdiq edilməsi haqqında" DİN-in 19.06.2002-ci il tarixli 235 nömrəli əmri .

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:**
Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi.

**1.5. Elektron xidmətin digər icraçıları:**
Şəxsin daxili işlər orqanlarinda xidməti, xidmət dövründə Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştiraki və həmçinin repressiyaya və ya sürgün olunması barədə arayışların verilməsi yalnız Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilir.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:**
qismən

**1.7. Elektron xidmətin icra müddəti:**
Arxiv arayışlarının verilməsi barədə müraciətə 15 gün müddətində baxilir. Baxılma müddəti ərizənin orqana təqdim olunduğu gündən hesablanır.

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:**
Arxiv arayışının verilməsi.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** İnformativ

**2.2. Elektron xidmət ödənişsizdir.**

**2.3. Elektron xidmətin istifadəçiləri:**
Fiziki şəxslər.

**2.4. Elektron xidmətin təqdim olunma yeri:**
http://mia.gov.az/?/az/content/29781/

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**
- http://mia.gov.az/?/az/content/29781/
- e-poçt: info@mia.gov.az
- telefon: +994 12 590-92-19

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

Fiziki şəxs əlavə №№ 1,3,5-də göstərilən müvafiq ərizə formasını və şəxsiyyət vəsiqəsinin surətini şəxsən polis orqanına təqdim etməlidir;

Şəxsin şəxsi iştirakı mümkün olmadıqda, onun ərizəsini qanuni nümayəndəsi əlavə №№ 2,4,6-da göstərilən müvafiq ərizə formasını, şəxsiyyət vəsiqəsini və qanuni nümayəndəliyini (Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada verilmiş etibarnamə ilə müvəkkil edilən şəxs, valideyn, qəyyum, himayəçi) təsdiqləyən sənədi polis orqanına təqdim etməlidir.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1. İnformativ növlü elektron xidmətlər istifadəçilər üçün daim açıqdır.**

**3.2. İnteraktiv elektron xidmətlər uçun sorğu:**

Arxiv arayışının alınması ilə bağlı müvafiq ərizə (əlavə №№ 1,2,3,4,5 və 6) və digər sənədlər Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinə təqdim olunmalıdır. BƏSİİ-in ünvanı: AZ1005 Bakı şəhəri, Azərbaycan pr.7 DİN. telefon: +994 12 590-92-19

Müraciətin qəbul edilməsi barədə müvafiq bildiriş verilir.

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

Müraciətlə əlaqədar təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə bu barədə ərizəçiyə dərhal məlumat verilir.

**3.4. Sorğunun icrası:**

Arayışlar Azərbaycan Respublikasının Dövlət dilində verilir. Təşkilat (orqan) rəhbərliyi tərəfindən imzalanmış arayış qeydiyyatdan keçirilir və möhürlə təsdiqlənir;

Arayış ərizəçiyə və yaxud onun qanuni nümayəndəsinə təşkilatda (orqanda) vətəndaşların qəbulunu həyata keçirən əməkdaş tərəfindən təqdim olunur.

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

Elektron xidmətin yerinə yetirilməsinə nəzarəti DİN-in Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi həyata keçirir.